

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 2 (21.913)

*6 yanvar 2018-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Ötən il Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyini 14 minə yaxın insan ziyarət edib



Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyini ötən il ərzində ziyarət edənlərin sayı 13 min 165 nəfərə çatıb. Onlardan 2928-i xarici ölkə vətəndaşlarıdır.

2017-ci ildə muxtar respublikada fəaliyyət göstərən mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, eləcə də digər təşkilat və qurumların əməkdaşlarının muzeylərə ekskursiyaları davam etdirilib. Ötən il Heydər Əliyev Muzeyinə 1733 ekskursiya təşkil olunub.

Bəhs olunan dövrdə muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili məktəbləri tələbələrinin, həmçinin orta məktəb şagirdlərinin iştirakı ilə muzeydə 85 açıq, 4 interaktiv dərs təşkil olunub, 5 tədbir keçirilib.

Heydər Əliyev Muzeyi naxçıvanlılarla yanaşı, muxtar respublikaya ölkəmizin digər regionlarından və xarici dövlətlərdən gələn qonaqların ən çox üz tutduqları ünvandır. Muzey görkəmli dövlət xadiminin həyat və siyasi fəaliyyətini əks etdirən eksponatlarla zəngindir. Hazırda eksponatların sayı 4678-ə çatıb. Onlardan 49-u 2017-ci ildə muzeyə verilib.

Azərbaycanın müasir dövlətçilik tarixi və ümummilli liderin siyasi irsi ilə maraqlananlar dəyərli məlumatlar əldə etmək üçün bu mədəniyyət müəssisəsinin kitabxana fondundan da səmərəli istifadə edə bilirlər. Muzeyin kitabxanasında 615 adda 1255 kitab var.

**Xəbərlər şöbəsi**

## Ümumi daxili məhsul istehsalında ilk yeri sənaye sahəsi tutur

***Sənaye məhsulu istehsalının ildən-ilə artması muxtar respublikamızın iqtisadi təhlükəsizliyinin əsas şərtlərindən biridir. Məhz bu baxımdan milli iqtisadiyyatımızın hazırkı dövründə mövcud sənaye imkanlarından maksimum yararlanmaq, dinamik məhsul istehsalında dayanıqlılığı təmin etmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması qarşıda duran əsas vəzifələrdəndir. Regional inkişafa göstərilən bu diqqət ölkəmizin bütün bölgələrində, o cümlədən Naxçıvan Muxtar Respublikasında da sənayenin inkişafına şərait yaradıb.***



Qeyd etmək lazımdır ki, muxtar respublika iqtisadiyyatında sənayenin dinamik inkişafına nail olunmasında ötən onilliklərdə aparılmış asaslı islahatlar böyük rol oynayıb. Belə ki, 1995-2001-ci illərdə aparılmış məqsədyönlü tədbirlər nəticəsində region iqtisadiyyatında yaranmış durğunluq tamamilə aradan qaldırılıb, 2001-ci ildə sənayenin ümumi məhsulunun həcmi 1995-ci illə müqayisədə 1,7 dəfə artıb. Muxtar respublikanın blokada şəraitində olmasına, xammalın və materialın daşınması sahəsində çətinliklərə baxmayaraq, ötən yüzillikdə fəaliyyət göstərmiş bir çox fabrik və emal müəssisələrinin işləkliyi təmin olunub, onların maddi-texniki bazası müasir dövrün tələblərinə uyğun yenidən qurulub.

Muxtar respublikanın enerji təhlükəsizliyi sahəsində həyata keçirilən kompleks tədbirlər digər sənaye sahələri ilə yanaşı, hasil sənayesinin də diqqət mərkəzinə çevrilməsinə təkan verib. Nəticədə, muxtar respublikada daha çox ehtiyac duyulan tikinti materialları, o cümlədən dəmir-beton, kərpic, travertin, mərmər və digər istehsal sahələrinin fəaliyyətə başlaması, eyni zamanda bir sıra nadir tikinti məhsullarının dünya bazarına çıxarılmasını təmin edib. Sonrakı illərdə isə muxtar respublikada davamlı inkişafın təmin edilməsi, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması və bu istiqamətdə bütün cəhdlərin hərtərəfli dəstəklənməsi sahəsində mühüm tədbirlər həyata keçirilib, bu sahədə müxtəlif dövlət proqramları hazırlanıb. Bu proqramların icrasında da əsas məqsəd Naxçıvan Muxtar Respublikasında yerli təbii sərvətlərdən səmərəli istifadə etməklə sənayesini inkişaf etdirmək, kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq, emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaqdan ibarət olub. Uğurlu icraetmə mexanizminin tətbiqi nəticəsində bu gün muxtar respublika iqtisadiyyatında ciddi iqtisadi uğurlara nail olunub və sürətli inkişaf üçün güclü potensial formalaşıb.

Hazırda icrası davam etdirilən və 2014-2018-ci illərdə regionun sosial-iqtisadi inkişafını nəzərdə tutan dövlət proqramı, məhz bu potensialın həcmini daha da genişləndirməyi hədəf kimi müəyyənləşdirib. Belə ki, bəhs edilən bu dövlət proqramında sənayeləşmə siyasətinə uyğun olaraq muxtar respublikada yerli resurs və xammalla işləyən, ixrac qabiliyyətli məhsullar istehsal edən müəssisələrin yaradılması, dövlət əhəmiyyətli müəssisələrin fəaliyyətinin dəstəklənməsi, xarici və yerli investisiyaların cəlb edilməsi, özəl müəssisələrin fəaliyyətinə dəstək verilməsi, ixtisaslaşmış və ümumi təyinatlı sənaye parklarının yaradılması istiqamətində işlərin davam etdirilməsi nəzərdə tutulub.

Məlumat üçün deyək ki, təkcə "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində muxtar respublika sənayesində 5,2 dəfə artım qeydə alınıb. Bu baxımdan 2014-2018-ci illəri əhatə edən dövlət proqramının uğurla başa çatdırılmasının muxtar respublika iqtisadiyyatına böyük töhfələr verəcəyini indidən təxmin etmək mümkündür. Bu ehtimalımıza əsas verən amillər sırasında son iki ildə eyni dövr üçün ayrıca götürülmüş sənaye məhsulu istehsalı həcminin ümumi daxili məhsulda tutduğu yerə nəzərən statistik rəqəmlərə nəzər salmaq kifayətdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin 2016-cı ilin 11 ayı üçün açıqladığı hesabatda qeyd olunur ki, muxtar respublikada yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə istehsal edilmiş 859 milyon 555 min 800 manat həcmində məhsul 2015-ci ilin müvafiq dövründəki göstəricini 1,9 faiz üstələyir. 2017-ci ilin ilk 11 ayında isə muxtar respublikada sənaye üzrə 879 milyon 800 min manat dəyərində məhsul istehsal edilib. Bu isə 2016-cı ilin müvafiq dövründəki göstəricini 1,2 faiz üstələyir. Analoji olaraq ötən il də sənaye sahəsi ümumi daxili məhsul istehsalında ilk yerlə birincidir.

İndi isə sənaye məhsulu istehsalı həcminin qeyd edilən dövrlərdə ümumi daxili məhsul istehsalında tutduğu yerə diqqət edək. Yuxarıda adıçəkilən dövlət komitəsinin məlumatında bildirilir ki, muxtar respublikada 2016-cı ilin yanvar-noyabr aylarında 2 milyard 251 milyon 910 min 900 manatlıq ümumi daxili məhsul istehsal olunub. Bu göstərici 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,6 faiz çoxdur. 2017-ci ilin yanvar-noyabr aylarında isə 2 milyard 357 milyon 217 min 100 manatlıq ümumi daxili məhsul istehsal olunub ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz çoxdur. Deməli, 2017-ci ildə sənaye məhsulu istehsalının həcmi əvvəlki illə müqayisədə daha çoxdur. Bu isə ötən ildə həm yeni istehsal müəssisələrinin yaradılması, həm də mövcud müəssisələrin istehsal gücünün artırılması hesabına əldə edilən dinamikadır.

Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Həyata keçirilən tədbirlər, yeni emal müəssisələrinin fəaliyyətə başlaması sənaye sahəsində inkişafa əhəmiyyətli təsir göstərmişdir. Əvvəllər aqrar münasibətlərin üstünlük təşkil etdiyi muxtar respublikada artıq bir neçə ildir ki, ümumi daxili məhsulda istehsal həcminə görə sənaye ilk yeri tutur. Cari ildə də bu tendensiya qorunmuş, istehsal edilən sənaye məhsulunun həcmi kənd təsərrüfatı məhsulunun həcmini 2,3 dəfə üstələyərək 880 milyon manata yaxın olmuşdur".***

Buradan isə o nəticəyə gəlmək mümkündür ki, sənayeləşmə muxtar respublika iqtisadiyyatında üstün mövqeyini qoruyub saxlamaqda, eyni zamanda istehsalatda innovativ amillərin tətbiqinə öz töhfəsini verməkdədir.

**✍ Səbuhi HƏSƏNOV**

***Muxtar respublikada yaşayan sağlamlıq imkanları məhdud uşaqlara daim dövlət qayğısı göstərilir, onların hərtərəfli inkişafı, cəmiyyətə adaptasiyası və inteqrasiyası üçün ardıcıl olaraq lazımi tədbirlər görülür.***

## Dövlət proqramının icrası davam etdirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın təsdiq olunması və aid təşkilatlar tərəfindən bu proqramın icrası sağlamlıq imkanları məhdud uşaqların layiqli vətəndaş kimi formalaşması, cəmiyyətə inteqrasiya olunması üçün əlverişli şərait yaradır. Proqramın əsas məqsədi muxtar respublikamızda yaşayan sağlamlıq imkanları məhdud uşaqların təhsil hüquqlarının təmin olunması, inklüziv təhsilə keçid imkanlarının artırılması, distant təhsilin inkişaf etdirilməsi, sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyasında müasir üsulların tətbiq edilməsi, onların müasir informasiya texnologiyalarından istifadə imkanlarının artırılması, eləcə də təlim-tərbiyəsilə bağlı müvafiq pedaqoji kadrların hazırlanmasıdır. Proqramın icrası ilə bağlı Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 2017-ci il ərzində sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası və təlim-tərbiyəsilə bağlı müvafiq tədbirlər həyata keçirmişdir. Belə ki, muxtar respublika üzrə 18 yaşadək sağlamlıq imkanları məhdud olan 1998 uşaqdan 268 nəfərinin məktəbəqədər yaşlı olduğu müəyyənləşdirilmiş və onlar haqqında məlumat bazası yaradılmışdır.

Ötən il ərzində komitə tərəfindən 1120 nəfər sağlamlıq imkanları məhdud uşağın ailələri ilə əlaqə saxlanılmış, məlumat bazasının yaradılması məqsədilə söhbətlər aparılmış, uşaqların əlillik göstəricisi və səbəbləri araşdırılmış, onların potensialına uyğun olaraq məktəb, məktəbəqədər və məktəbdənkənar təlim-tərbiyə müəssisələrinə göndərilmələri tövsiyə olunmuşdur.

Proqramın icrası ilə əlaqədar uşaq bağçalarına, ümumtəhsil müəssisələrinə, musiqi, idman, şahmat məktəblərinə və digər məktəbdənkənar müəssisələrə sağlamlıq imkanları məhdud uşaqların cəlb olunması diqqət mərkəzində saxlanılmışdır.

Proqrama uyğun olaraq müvafiq komissiya tərəfindən tədrisə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlarla bağlı monitorinqlərin aparılması, valideyn, şagird və müəllimlərlə maarifləndirici görüşlərin təşkili həyata keçirilir. Ümumilikdə, ötən il muxtar respublikanın 207 məktəbəqədər, məktəb və məktəbdənkənar təhsil müəssisələrində monitorinq keçirilmiş, xüsusi kateqoriyadan olan uşaqlara qarşı heç bir hüquq pozuntusu qeydə alınmamışdır. Eyni zamanda Ordubad şəhər 3 nömrəli, Kəngərli rayon Qıvraq qəsəbə, Şərur şəhər 2 nömrəli, Şahbuz şəhər 1 nömrəli tam orta məktəblərdə sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması ilə bağlı onların valideynləri və məktəb psixoloqları ilə görüş keçirilmişdir.

Komitə tərəfindən sağlamlıq imkanları məhdud uşaqların tətil günlərində asudə vaxtlarının səmərəli təşkili məqsədilə muxtar respublikanın rayon və şəhərlərində təşkil olunmuş teatr tamaşalarına, animasiya və cizgi filmlərinə 490 uşaq cəlb olunmuş, 11 nəfər sağlamlıq imkanları məhdud uşaq tarixi abidələrə ekskursiyalara aparılmış və bu kateqoriyadan olan 30 uşağın Ağbulaq İstirahət Mərkəzində 3 günlük "Yay məktəbi" çərçivəsində istirahəti təşkil olunmuşdur.

Sağlamlıq imkanları məhdud uşaqların istedadlarının aşkara çıxarılması, yaradıcılıq müsabiqələrinin keçirilməsi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə 2 aprel – Beynəlxalq Uşaq Kitab Günü ilə əlaqədar "Müstəqilliyimiz əbədidir" mövzusunda 30 uşaq arasında II muxtar respublika şeir müsabiqəsi keçirilmişdir. Müsabiqədə qalib olan və həvəsləndirici yerlərə layiq görülən uşaqlara diplom və hədiyyələr, digər iştirakçılara hədiyyələr təqdim olunmuşdur. Bundan əlavə, bu kateqoriyadan olan uşaqların solo konserti təşkil edilmiş, onlara diplom və hədiyyələr verilmişdir. Həmçinin uşaqların sərgi-satışlarda rəsm və əl işləri sərgilənmiş, onların satışı təşkil olunmuşdur.

Ümumilikdə, proqramın icrası ilə bağlı 2405 sağlamlıq imkanları məhdud uşağın ailəsi ilə əlaqə saxlanılmış, uşaqların əlillik göstəricisi və səbəbləri araşdırılmış, onlardan 218 nəfər məktəb, məktəbəqədər və məktəbdənkənar təlim-tərbiyə müəssisələrinə cəlb olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

İcmal

# Geostrateji mövqeyə malik olan Naxçıvan sürətli sosial-iqtisadi, mədəni inkişafı ilə regional cazibə mərkəzinə çevrilib

## *Ötən ilin son ayının nəticələri bunu bir daha təsdiq edir*



*Naxçıvan şəhərinin İslam mədəniyyəti paytaxtı statusu daşıdığı bu il ölkəmiz və muxtar respublikamız üçün əlamətdar hadisələrlə yadda qalacaqdır. Respublikamızda "İslam Həmrəyliyi ili" elan edilən 2017-ci ilin geridə qalması ilə birlikdə müstəqil dövlətimiz Naxçıvanın timsalında bu missiyanı uğurla davam etdirərək həmrəyliyin formalaşmasında mühüm rol oynayan İslam mədəniyyətinin qlobal arenada təmsilçisi və təbliğatçısı kimi çıxış edəcəkdir. Sürətlə inkişaf edən, qədimliyi və müasirliyi ilə diqqətləri cəlb edən, bir sıra məsələlərdə nümunəviliyi ilə seçilən Naxçıvan mədəniyyətlər və dinlərarası dialoqun inkişafında ümumbəşəri dəyərlərin təbliği və gələcək nəsillərə ötürülməsində İslam mədəniyyətinin önəmini diqqətə çatdıracaq. Ötən il dekabrın 6-da "İslam Həmrəyliyi ili" çərçivəsində Naxçıvanda "Ümummilli lider Heydər Əliyev dini həmrəyliyin yaradıcısıdır" mövzusunda keçirilən konfransda dahi şəxsiyyətin bu sahədə göstərdiyi misilsiz xidmətlər barədə ətraflı söhbət açılmaqla bərabər, həm də yuxarıda qeyd etdiyimiz məqamlar vurğulanıb.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov konfrans iştirakçılarını salamlayıb, təşkilatçılara təşəkkürünü bildirərək deyib: ***"Dini dözümlülük və həmrəylik, milli-mənəvi dəyərlərə qayıdış yaşadığımız dövrün əsas məsələlərindəndir. Zaman keçdikcə daha aydın görünür ki, mənəvi dəyərləri bərpa etmədən, dini həmrəylik yaratmadan sabitliyə nail olmaq mümkün deyil. Əgər mənəvi dəyərlər bir xalqı birləşdirirsə, dini dəyərlər ölkələri və xalqları birləşdirir. Xalqımızın ümummilli lideri Heydər Əliyev bununla bağlı deyirdi: "İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir".***

Konfransda iştirak edən nüfuzlu elm və din xadimləri çıxışlarında Naxçıvanın bugünkü heyrətamiz inkişafı barədə söz açıblar. Onlar vurğulayıblar ki, ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında dini-mənəvi dəyərlərin qorunması sahəsində ardıcıl işlər görülür, dini maarifçilik ümumi maarifçiliyin tərkib hissəsi kimi inkişaf etdirilir. Bu mənada, Naxçıvanda dini həmrəyliklə bağlı konfransın keçirilməsi mühüm əhəmiyyətə malikdir.

Qeyd edək ki, qədim diyar Dünya tufanından sonra bütün dinlərin və xalqların həyatının başlandığı böyük sivilizasiya mərkəzidir. Nuh Peyğəmbərin Naxçıvandakı türbəsi həmrəyliyə, birliyə, sülhə, ümumilikdə isə insanlığın xoşbəxt gələcəyinə ucaldılmış tolerantlıq abidəsidir. Dağılmış, sıradan çıxmış, yox olmuş bu abidəni bərpa edənlər, yenidən ucaldanlar təkcə Azərbaycana deyil, ümumilikdə, bəşər tarixinə böyük töhfə veriblər. Naxçıvan həmrəyliyin Şərq və Qərb modellərinin sintezinin ifadə olunduğu bir məkandır. Bütün bunlar 2018-ci ildə Naxçıvanın İslam mədəniyyətinin paytaxtı missiyasını uğurla yerinə yetirəcəyinə və gələcəkdə təşəbbüs olarsa, Avropa mədəniyyətinin paytaxtı kimi də bu vəzifənin öhdəsindən layiqincə gələcəyinə əminlik yaradır.

Muxtar respublikada əldə edilən bütün bu uğurlara ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının sədaqətlə, vətənpərvərliklə davam etdirilməsinin nəticəsində nail olunub. Məhz Heydər Əliyev siyasi xəttinə dərin sədaqətin nəticəsində kompleks inkişafın əsası qoyulub, muxtar respublika dahi rəhbərin arzuladığı inkişafa qovuşub, onun etibarlı müdafiə sistemi yaradılıb, ərzaq və enerji təhlükəsizliyi təmin edilib. Ümummilli liderimizinVətənə sədaqət nümunəsi olan şərəfli həyatında ölkəmizə, həmçinin doğulub boya-başa çatdığı Naxçıvana bağlılığı, Azərbaycanın bu qədim diyarına tükənməz məhəbbəti və ardıcıl qayğısı nəsillərə nümunə olub. Bütün Azərbaycan xalqı kimi, qədirbilən naxçıvanlılar da əvəzolunmaz liderin ölkəmiz naminə gördüyü bu işləri heç vaxt unutmur, dahi şəxsiyyətin siyasi məktəbinin layiqli məzunları Onun əziz xatirəsini daim yad edir, Heydər Əliyev irsinin təbliğinə xüsusi diqqət yetirirlər. Hər il olduğu kimi, ötən il dekabrın 12-də də Naxçıvan şəhərində ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə tər gül dəstəsi qoyub, xalqımızın böyük oğlunun xatirəsinə ehtiramını bildirib.

Bu gün muxtar respublikamızda Vətənimizin azadlığı və ərazi bütövlüyünün qorunması zamanı sağlamlığını itirənlərə, şəhid ailələrinə dövlətimiz tərəfindən yüksək diqqət və qayğı göstərilir. Həyata keçirilən məqsədyönlü tədbirlərin davamı olaraq ötən il dekabrın 1-də sağlamlıq imkanları məhdud üç Azərbaycan Vətən Müharibəsi iştirakçısına və hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlıq imkanları məhdudlaşmış bir nəfərə "NAZ-Lifan-320" markalı minik avtomobilləri təqdim olunub.

Naxçıvanda aparılan quruculuq işləri, bütün sahələr üzrə yaradılan müasir infrastruktur dünyanın inkişaf etmiş ölkələri ilə müqayisə olunacaq səviyyədədir. Hər il muxtar respublikamızın kəndlərində müasir infrastruktur yaradılır, yeni sosial obyektlər inşa olunur, yollar çəkilir, əhalinin rahat yaşayışı təmin edilir.

Dekabrın 2-də Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində yeni kənd, xidmət mərkəzlərinin, kənd yolunun açılışı olub. Ali Məclisin Sədri açılış tədbirlərində iştirak edib.

Bununla Qaraxanbəyli kəndi də müasir və abad yaşayış məntəqəsinə çevrilib. Kənddə müasir yol infrastrukturunun yaradılması, kənd mərkəzinin tikilməsi, inzibati ərazi dairəsi üzrə nümayəndəliyin, bələdiyyənin, feldşer-mama məntəqəsinin və digər qurumların səmərəli fəaliyyətlərinin təmin olunması 3500-dən çox sakinin rahat yaşayışına xidmət edir.

Aparılan quruculuq işləri Babək rayonunun Gərməçataq kəndini də əhatə edib. Dekabrın 8-də Ali Məclis Sədrinin iştirakı ilə Gərməçataqda yeni məktəb binası, kənd və xidmət mərkəzləri istifadəyə verilib.

Tədrisin yüksək səviyyədə aparılması üçün kənddəki yeni məktəb binası müasir avadanlıqlarla təchiz edilib. İstifadəyə verilən kənd mərkəzində təşkilatların əhaliyə yüksək səviyyədə xidmət göstərmələri üçün hər cür şərait yaradılıb. Yeni istifadəyə verilən xidmət mərkəzi sakinlərin zəruri ehtiyaclarını ödəyəcəkdir. Kəndin yolu da yenidən qurulub.

Dağ və sərhəd kəndinin fasiləsiz elektrik enerjisi, təbii qaz, müasir rabitə xidməti və sürətli internetlə təmin edilməsi burada məskunlaşmanı da artırıb. Yaradılmış şəraitin nəticəsidir ki, vaxtilə yaşayış məntəqəsini tərk etmiş 4 ailə artıq geri qayıdaraq Gərməçataqda məskunlaşıb. Bir sözlə, bu gün müasir Gərməçataq kəndi düşmənə gözdağıdır.

Düşmənlə üz-üzə olan Gərməçataqda bu gün həyat öz axarı ilə davam edir. Çünki Əlahiddə Ümumqoşun Ordu ərazidə əlverişli hücum mövqeyi seçib və burada möhkəm müdafiə potensialı yaradılıb. Postlar müasir silah və texnika ilə təmin olunub, yeni səngər və əlaqə yolları çəkilərək əlverişsiz hava şəraitinə uyğunlaşdırılıb. Dağ və sərhəd yaşayış məntəqəsində hərbi xidməti nümunəvi təşkil etmək üçün hər cür şərait yaradılıb. Müasir yaşayış və xidmət şəraiti əsgər və zabitlərin döyüş ruhunu daha da artırır.

Dekabrın 8-də Ali Məclisin Sədri Babək rayonunun Gərməçataq kəndindəki hərbi hissənin əhatə etdiyi postda da olub, əsgər və zabitlərlə görüşüb, sərhədlərimizi etibarlı müdafiə etdiklərinə görə şəxsi heyətə təşəkkür edib, xidmətdə fərqlənənlərə hədiyyələr verib.

Həmin gün Ali Məclisin Sədri Gərməçataq kəndində yerləşən dayaq məntəqəsində olub, şəxsi heyətlə görüşüb.

Əsgərləri salamlayan Ali Məclisin Sədri deyib: ***"Bu ərazidə yerləşən yaşayış məntəqələrində insanların rahat yaşayışının təmin olunması şəxsi heyətin xidmətinin təşkilindən asılıdır. Çünki ölkənin sərhədlərinin etibarlı qorunması vətəndaşların rahat yaşayışına və quruculuq işlərinin aparılmasına xidmət edir. Gərməçataq kəndində aparılan geniş quruculuq işləri və yaradılan müasir kənd infrastrukturu ona görə mümkün olmuşdur ki, Azərbaycan əsgəri öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir, torpaqlarımız etibarlı müdafiə olunur".***

Ali Məclisin Sədri əsgərlərin məişət şəraiti ilə maraqlanıb, müdafiə mövqeyinin möhkəmləndirilməsi və xidməti döyüş fəaliyyətinin təşkili barədə müvafiq tapşırıqlar verib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2017-ci il fevralın 7-də "Akademik Həsən Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. Buna uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə təsdiq etdiyi Tədbirlər Planına əsasən dekabrın 14-də – Naxçıvan Dövlət Musiqili Dram Teatrında böyük alimin 110 illik yubileyi qeyd olunub.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası xarici ölkələrlə əlaqələrini daim inkişaf etdirir. Ötən il dekabrın 15-də Ali Məclisin Sədri Yunanıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Nikolaos Kanellos ilə görüşüb. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Yunanıstan arasında təhsil və ticarət sahələrində əlaqələrin mövcud olduğunu bildirən Ali Məclisin Sədri səfərin əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Dərin köklərə malik olan Azərbaycan-İran əlaqələrinin inkişafı xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi əsasını qoyduğu səmərəli əməkdaşlıq əlaqələri dahi şəxsiyyətin Azərbaycanda ali hakimiyyətə ikinci qayıdışından sonra dövlətlərarası münasibətlər səviyyəsinə yüksəldilib. Bu gün iki qonşu ölkənin əlaqələrinin inkişafına Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasında əlaqələrin dərinləşməsi də öz töhfəsini verir. Mövcud imkanlardan səmərəli istifadə və qarşılıqlı rəsmi səfərlər əlaqələrimizin davamlı olması üçün möhkəm təməl yaradıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov dekabrın 17-də İran İslam Respublikasına rəsmi səfər edib.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərif, İran İslam Respublikası İslami Şura Məclisinin sədri Əli Laricani, İran-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun həmsədri Salman Xodadadi, dekabrın 18-də isə İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri, hökumətlərarası komissiyanın həmsədri Məsud Kərbasian ilə görüşüb. Görüşlərdə əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb, qarşılıqlı fikir mübadiləsi aparılıb, Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ilə İran və onun yaxın vilayətləri arasında imzalanan sənədlər və əldə olunan razılıqlar münasibətlərimizin daha da genişləndirilməsi istiqamətində atılan addım kimi dəyərləndirilib.

Bu gün Azərbaycan-Türkiyə əlaqələri inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu çərçivədə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında da çoxşaxəli faydalı əməkdaşlıq əlaqələri qurulub. Naxçıvanın xarici ticarət dövriyyəsində Türkiyə Respublikasının payı 2017-ci ilin 11 ayında əvvəlki ilə nisbətən 2 milyon ABŞ dolları artaraq 7 milyon 685 min ABŞ dolları təşkil edib. Qardaş Türkiyə hökumətinin qəbul etdiyi yeni tənzimləmə qərarına görə ötən ildən Naxçıvan Muxtar Respublikasındakı istehsal müəssisələrinə Türkiyəyə məhsul ixracında sərbəst ticarət imkanı verilib. Bu qərar iqtisadi-ticarət əlaqələrimizin daha da gücləndirilməsinə yönəlmiş mühüm addım kimi yüksək dəyərə malikdir. Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırımın dekabrın 20-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlməsi də əlaqələrin artan xətt üzrə inkişaf etdiyini göstərir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun və Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırımın görüşü olub.

Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında Naxçıvan Muxtar Respublikasının mühüm yeri olduğunu bildirən Ali Məclisin Sədri diqqətə çatdırıb ki, təhsil, səhiyyə, mədəniyyət, ticarət, iqtisadiyyat və ordu quruculuğu sahələrində əlaqələrin inkişafı məmnunluq doğurur.

Söhbət zamanı İqdır və Naxçıvanın hava limanları arasında əməkdaşlığın inkişaf perspektivləri barədə də fikir mübadiləsi aparılıb. Görüşdə qarşılıqlı maraqdoğuran digər məsələlər ətrafında müzakirələr olub.

Tarixə qovuşan 2017-ci ilin müxtəlif sahələr üzrə göstəriciləri bundan əvvəlki dövrlərin göstəricilərindən xeyli çoxdur. Dekabrın 30-da beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında da qeyd olunduğu kimi, muxtar respublikamızda daxili imkanlardan səmərəli istifadə hesabına yeni istehsal müəssisələrinin işə salınması iqtisadiyyatın çoxsahəli inkişafına, məşğulluq səviyyəsinin yüksəldilməsinə, yeni sosial layihələrin həyata keçirilməsinə imkan yaradıb. Bütün bunlar inkişafın əsas göstəricisi olan ümumi daxili məhsulda öz əksini tapıb. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin ötən dövrü ərzində ümumi daxili məhsulun həcmi 1,6 faiz artaraq 2 milyard 357 milyon manatdan çox olub. Onun bir nəfərə düşən həcmi 5 min 228 manat təşkil edib ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricidən 3,7 faiz çoxdur. Ümumi daxili məhsul istehsalının 57 faizdən çoxu real sektorun payına düşüb ki, bu da davamlı və tarazlı inkişafın əsas göstəricisidir. Bu inkişaf bir sıra sahələrdə özünü aydın şəkildə göstərir. Bu gün iqtisadi inkişafdan əldə edilən gəlirlərin, ilk növbədə, insan kapitalının formalaşdırılmasına yönəldilməsi isə gələcək illərə hesablanmış strateji xəttin uğurla həyata keçirilməsindən xəbər verir.

Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasındakı məruzəsində Ali Məclisin Sədri cənab Vasif Talıbov deyib: ***"Əvvəlki dövrlərdə olduğu kimi, başa çatmaqda olan 2017-ci ildə də muxtar respublikanın sosial-iqtisadi həyatında inkişaf təmin olunmuş, sosial infrastruktur və əhalinin həyat səviyyəsi daha da yaxşılaşdırılmışdır. Tərəqqi və inkişafın davamlı xarakter alması ümummilli lider Heydər Əliyevin siyasi xəttinə sadiqliyin və ölkə Prezidentinin blokada şəraitində yaşayan muxtar respublikaya göstərdiyi diqqət və qayğının nəticəsidir".***

Bəli, qədim Naxçıvan 2018-ci ili böyük uğurlarla qarşılayıb. Tarixi bir missiyanı üzərinə götürəcəyi ilin astanasında olduğu dekabrın 31-də axşam saatlarından başlayaraq Naxçıvan şəhərinin Heydər Əliyev prospektindəki mərkəzi meydanda bayram şənliyi təşkil olunub, Vətənimizi, həmrəyliyimizi, Yeni ili tərənnüm edən mahnılar səslənib, sakinlərə və şəhərimizin qonaqlarına iaşə xidməti göstərilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ailə üzvləri ilə birlikdə bayram şənliyində iştirak edib.

***Yeni ilin ilk dəqiqələrində Naxçıvan şəhərinin mərkəzi meydanında möhtəşəm bayram atəşfəşanlığı olub. Atəşfəşanlıq Vətən sevgisinin misilsiz nümunəsini göstərən naxçıvanlıların həm də 2017-ci ili uğurla yola saldıqlarını və 2018-ci ildə yeni-yeni nailiyyətlər qazanmaq əzmində olduqlarını ifadə edirdi. Çünki doğma yurdumuz artıq bir inkişaf salnaməsi yazıb. Strateji əhəmiyyətə malik olan Naxçıvanın 30 ilə yaxın bir dövrdə blokadada olmasına baxmayaraq, sosial-iqtisadi, mədəni inkişafı onu regional cazibə mərkəzinə çevirib. Bu gün muxtar respublika beynəlxalq səviyyəli tədbirlərin keçirildiyi məkan kimi şan-şöhrət qazanıb. Əminik ki, bu il Naxçıvan İslam mədəniyyətinin paytaxtı kimi daha böyük missiyanı uğurla həyata keçirəcəkdir.***

**Rauf KƏNGƏRLİ**

*Şəhərimizin qonaqları*

# Oleq Kuznetsov: Naxçıvan Cənubi Qafqazın ən təhlükəsiz regionudur

***Bu günlərdə rusiyalı tarixçi, tanınmış qafqazşünas alim Oleq Kuznetsov Naxçıvanda olub. Maraqlı elmi araşdırmaları olan alim, həm də Azərbaycan həqiqətlərini dünyaya olduğu kimi çatdıran tarixçilərdəndir. Onunla müsahibəni "Şərq qapısı" qəzetinin oxucularına təqdim edirik:***

***– Oleq Yuryeviç, sizi yenidən Naxçıvanda görmək xoşdur. Budəfəki gəlişinizin məqsədini bilmək maraqlı olardı.***

– Çox sağ olun. Budəfəki səfərimin məqsədi fərdi xarakter daşıyır. Gördüyünüz kimi, Duzdağa müalicə üçün gəlmişəm. Bu mərkəzi seçməyimi mənə yaxın dostlarım məsləhət bilmişdi. Buradakı şəraitdən, göstərilən xidmətdən çox razıyam və gündən-günə müalicənin müsbət təsirini də hiss edirəm. Digər tərəfdən Azərbaycanda, Naxçıvanda məni yaxından tanıyanlar çoxdur. Elə bunun nəticəsidir ki, bu günlərdə AMEA Naxçıvan Bölməsində, Naxçıvan Dövlət Televiziyasında oldum. Biz sözlə, Naxçıvanda olmaq hər zaman mənim üçün xoşdur.

***– Sizin Naxçıvanın tarixinə maraq göstərdiyiniz haqqında məlumatım var. Hətta elmi fəaliyyətinizdən də bunu görmək mümkündür. Bu qədim diyara marağınız haradan başlayır?***

– Doğrusunu desəm, uşaqlıqdan. Necə? Deməli, mənim bir qohumum, daha doğrusu, anamın əmisi oğlu II Dünya müharibəsi dövründə Qafqazda xidmət etmişdi. Xidməti hərbi kəşfiyyat sahəsi ilə bağlı idi. Hətta 1943-cü ildə Stalin, Çörçil və Ruzveltin iştirak etdiyi məşhur Tehran konfransının təşkilində də iştirak edib, bu xidmətinə görə ordenə layiq görülüb. Sonralar isə 1947-ci ilə qədər Naxçıvanda xidmət etməli olub. Onun Qafqaz haqqında, Naxçıvan haqqında parlaq xatirələri vardı. Burada yaşayan xalqlarla bağlı ətraflı məlumata malik idi. Söhbətlərində Naxçıvanın "Kəngərlilər" adlı məşhur nəslinin olduğunu demişdi. Onları döyüşkən, cəsarətli, hərb sənətinə böyük marağı olan bir nəsil kimi xarakterizə etmişdi. Bu da məndə Naxçıvanın tarixinə, mədəniyyətinə böyük maraq oyatmışdı. Sonralar mən mənbələrdə bu qədim diyarın tarixi keçmişi haqqında məlumatlarla rastlaşdım və tabii ki, həm hüquqşünas, həm də tarixçi olaraq bu maraq mənim elmi fəaliyyətimə də təsir etdi. Yeri gəlmişkən, məni tarixçi kimi ən çox Azərbaycanda, eləcə də Ermənistanda tanıyırlar. Rusiyada isə daha çox hüquqşünas kimi tanınıram.

***– Sizi Azərbaycanda həmişə həqiqəti müdafiə edən tarixçi kimi qəbul edirlər. Xüsusilə mənfur ermənilərin saxta və qurama "tarixi həqiqətlərini" lazımınca ifşa etdiyinizə görə. Bu mənada, çoxları sizi Azərbaycanın dostu adlandırmaqdan çəkinmir.***

– Bəli, bilirəm ki, məni Azərbaycanda çox sevirlər, hətta küçədə belə, yaxınlaşıb salamlaşanlar az deyil. Mən də, öz növbəmdə, xalqınıza qarşı simpatiyamı gizlətmirəm. Ancaq bu, haradan qaynaqlanır? Mən erməni millətçiliyi, erməni ekstremizmi haqqında kifayət qədər məlumatlıyam. Xüsusilə dünyada mövcud olan müxtəlif terror qruplaşmaları ilə müqayisədə erməni terrorizmi daha çox təhdid və hədələri özündə birləşdirir.



Biz Azərbaycana qarşı törədilənlərin nümunəsində bunun çox şahidi olmuşuq. Bu mövzunu dərindən öyrənəndə məlum oldu ki, hazırda erməni ekstremizmi hətta Rusiya dövlətçiliyini də təhdid altına alır. Ancaq bu, hələ ki, Rusiyada geniş miqyasda başa düşülmür. Halbuki Rusiyanın özündə erməni terrorçularının müxtəlif vaxtlarda törətdikləri terror hadisələri ilə bağlı faktlar mövcuddur. Buna mən çoxsaylı misallar gətirə bilərəm. Erməni terrorizmi, erməni ekstremizmi haqqında faktları araşdıranda məlum oldu ki, bu ideologiya indi də davam etdirilir və mən bu hədələrin qarşısının alınmasında elmi fəaliyyətimi genişləndirəndə, təbii ki, Azərbaycanla maraqlarımız üst-üstə düşür.

***– Bu istiqamətdə hazırkı fəaliyyətiniz haqqında da bilmək maraqlı olar.***

– Əvvəlcə onu deyim ki, erməni terorrizminin tarixi haqqında yazdığım kitab ("XX əsrdə transmilli erməni terrorizmi. Tarixi-kriminoloji tədqiqat" – S.Həsənov) 2015-ci ildə Bakıda, 2016-cı ildə Moskvada nəşr olundu. Eyni zamanda 2015-ci ildə Stokholmda, 2016-cı ildə isə ingilis dilində Berlində çap olundu. Kitablar böyük tirajla nəşr edildi. Bu mənada, artıq Avropa elmi məkanında və xüsusi dairələrdə də tanınıram. Və əlbəttə, monoqrafiya haqqında Ermənistanda da məlumatlıdırlar. Hətta buna görə ermənilərin yeni təqib dalğası ilə üz-üzə qaldım. Məqsədləri o idi ki, məni xalqlar arasında ekstremizm toxumlarını səpməkdə günahlandırsınlar. Hətta bununla bağlı Moskvada mənə qarşı cinayət işi qaldırdılar, 2017-ci ilin ortalarında. Ancaq mən bu kimi hədələrə öyrəşmişəm, düşünürəm ki, bu hədələr, terrorizmi müdafiə edənlər cəzasız qalmamalıdırlar. Ən yaxşı cavab növbəti monoqrafiyanı nəşr etdirməkdir. Bir vacib nüansı da qeyd etmək istəyirəm. Mənim kitablarım dünyanın müxtəlif ölkələrində oxuyurlar. Bu monoqrafiya çap olunandan sonra müxtəlif ölkələrdən mənim elektron poçtuma erməni terrorizmi ilə bağlı xeyli materiallar gəlməyə başladı. Məsələn, Türkiyənin Ankara, İstanbul hava limanlarında, Fransanın Orli şəhər hava limanında, təxminən son 80 ayda baş vermiş teraktlarla bağlı kifayət qədər məlumatlar aldım. Eyni zamanda Belarusdan çoxsaylı materiallar göndərildi. Bunlar kifayət qədər əhatəli materiallar və faktlardır. Bunları yenidən işləmək, dəqiqləşdirmək bir müddət vaxt aparacaq. 2018-ci ilin ortalarından bu işlə məşğul olacam. Ümid edirəm ki, cari ilin payızında bununla bağlı hazırlayacağım monoqrafiyanın təqdimatını edə biləcəyəm. Bundan əlavə, Ermənistanın Rusiyada terrorizm ideologiyasını necə müdafiə etməsi ilə bağlı mənə xeyli sayda materiallar göndərilib, hansı ki bu faktlarla sənədli film çəkmək mümkündür. Bunu da edəcəm. Bu haqda çəkiləcək filmin ssenarisi də hazırdır, hətta müəyyən kadrlar da çəkilib. Düşünürəm ki, yanvarın sonu, fevralın əvvəllərində filmi tamamilə yekunlaşdırıb təqdim edəcəyik.

***– Oleq Yuryeviç, bu mövzu ilə bağlı çox danışmaq olar. Maraqlıdır, erməni diasporu və ya Ermənistandakı hakim dairələrdən hazırda sizə qarşı təhdidlər davam edirmi və əsasən, bu hədələr hansı formada özünü göstərir?***

– Faktiki olaraq son zamanlarda bu cür təhdid yoxdur. Əsasən, bu təhdidlər elektron poçtuma yazmaqla göndərilir. Bəzən bu hədələr Ermənistanın rusdilli saytlarındakı yazılarda özünü göstərir. Ancaq mən bunlara fikir vermirəm.

***– Mən yenidən Naxçıvanla bağlı mövzuya qayıtmaq istərdim. Siz ilk dəfə 2014-cü ildə Naxçıvana gəlmişdiniz və aradan 3 ildən çox vaxt keçib. Burada gördüklərinizi ötən dövrlə müqayisə etmək imkanınız var. Təəssüratlarınızı bilmək bizim üçün maraqlıdır.***

– Mən ilk dəfə gələndə burada yay fəsli idi. İndi isə əksinə qışdır. Havası təmiz, insanları qonaqpərvər və mehribandırlar. Ancaq burada mənim ən çox diqqətimi cəlb edən mühəndislik infrastrukturudur. Naxçıvanın çox rahat avtomobil yolları var. Əlincə qalasına gedən zaman yolboyu kəndlərdən keçirdik. Gördüyüm bütün kəndlər rahat yolları, yeni məktəb və inzibati binaları ilə göz oxşayırdı. Bundan əlavə, muxtar respublikanın enerji təhlükəsizliyi sahəsində atılan addımlar mühüm strateji xarakter daşıyır. Qazlaşdırmanı da bura əlavə etsək, həm enerji sahəsində, həm də insanların yaşayış səviyyəsinin yüksəldilməsi baxımından Naxçıvan nümunəvi bir regiondur. Bu işlər muxtar respublika rəhbərinin gərgin əməyini, böyük zəhmətini göstərir. Bundan əlavə, yeni ili burada qarşıladığımdan bir neçə dəfə şəhəri gəzmək imkanım oldu. Məsələn, diqqətimi cəlb etdi ki, sizin şəhərdə çoxlu kafelər var. İnsanlar öz ailələri ilə rahat şəkildə bu kafelərə gəlirlər. Şahidi oldum ki, qonşu İran İslam Respublikasından yeni ili burada qeyd etmək üçün xeyli gələnlər var. Bunlar nəyin göstəricisidir? İlk olaraq sabitliyin və təhlükəsizliyin. Və yaxud başqa bir misal. Sizin sərhəd ölkələrdən gələn və ya əks istiqamətdə hərəkət edən avtomobil karvanları Naxçıvandan keçirlər. Bu, o deməkdir ki, buradan keçmək onlar üçün maliyyə baxımından daha sərfəlidir və yaxud, sadəcə, təhlükəsizdir. Bütün bu parametrlərinə görə hesab edirəm ki, Naxçıvan Cənubi Qafqazın ən təhlükəsiz regionudur.

***– Oleq Yuryeviç, çox sağ olun maraqlı söhbətə görə. Gələcək işlərinizdə uğurlar arzulayıram.***

– Sağ olun.

**Səbuhi HƏSƏNOV**

***Azərbaycanın hər guşəsində İslam dinini əsərlərində təbliğ edən görkəmli alim və sənətkarlar yaşayıb. Onların fəaliyyəti İslam dininin möhkəmlənməsində, genişlənməsində, eyni zamanda bu dinin elmi baxımdan izahında mühüm rol oynayıb. Qədim Naxçıvan diyarı həm də belə şəxsiyyətləri ilə tanınır.***

# Baba Nemətullah Naxçıvaninin şah əsəri




Baba Nemətullah Naxçıvani də Naxçıvanın adını yüksəklərə qaldıran alimlərdən olub. O təkcə ilahiyyat elmində deyil, həm də dünyəvi elmlərdə mahir idi. Dövrünün böyük övliyalarından olan görkəmli alim bir çox sahədə söz və hikmət sahibi olub. Anadoluya gəlmədən öncə yazdığı, "Qurani-Kərim"in bütün ayələrinin təfsir edildiyi "Əl-Fəvatihül-İlahiyyə vəl Məfatihül-Qeybiyyə" ("Quranın kəlmə və hikmətlərini açıqlayan qeybin açarı və ilahi fəthi") əsəri daha çox təsəvvüf ağırlıqlıdır. Bu əsər zamanında osmanlı alimləri tərəfindən pul toplanaraq nəşr etdirilib. Təfsir dünya şöhrətli naxçıvanlı alim Baba Nemətullah Naxçıvaninin ən mükəmməl əsəridir.

Qeyd olunan əsər "Qurani-Kərim"in ilk təsəvvüf təfsiri olaraq qəbul edilir. Müqəddəs kitabdakı surələr əsərdə son dərəcə böyük ustalıqla şərh olunub. 1495-ci ildə Təbrizdə başa çatdırdığı kitabda müəllif hər bir surənin məzmununu müvafiq girişlə başlayıb, nəticəsini də mükəmməl şəkildə yekunlaşdırıb. Əsər üç cilddən ibarətdir. İlk cilddə 13, ikinci cilddə 20, üçüncüdə isə 81 surənin təfsiri və şərhi yer alıb.

İlk cild 900, ikinci cild 773, üçüncü cild 904 səhifədən ibarətdir. "Əl-Fəvatihül-İlahiyyə vəl Məfatihül-Qeybiyyə" əsərində alimin şərhlərinə diqqət yetirdikdə aydın olur ki, Baba Nemətullah Naxçıvani son dərəcə yüksək mədəniyyət və dünyaya sahib alim olub. O, əsərlərində ən başda "Beyzavi" təfsiri olmaqla bir çox təfsirdən nümunələr verib. Bu da onun geniş səpkili mütaliəyə sahib olduğuna işarədir.

Bəhs etdiyimiz əsər təsdiq edir ki, dahi alim "Qurani-Kərim"i əzbər bilib və bu dəyərli kitaba böyük hörmət bəsləyib.

Qeyd edək ki, Naxçıvani məşhur təfsirini qələmə alarkən heç bir ədəbiyyatdan istifadə etməyib, öz fikirlərini sərbəst şəkildə, böyük elmi ustalıqla qələmə alıb.

Bu barədə alimin özü qeyd edib: "Allah-Taalaya and içirəm ki, bu fəqir və vacib olmayan qardaşınız, bu əsəri qələmə alarkən bir sıra xülasə və sənədlərə müraciət edərək yazan, Yaradan və yaradılanlardan bəhs edərkən səhvə yol verən saxta sofilərdən deyildir. Əsərdə nə varsa, hamısı Allah-Taalanın bəxş edib ortaya çıxardığı dəyərli izahlardır. Bu əsər Quranın kəlmələrini izah edir".

Məhəmməd Peyğəmbərin həyat tərzindən başqa heç bir həyat tərzini qəbul etməyən bu böyük ustad şəriət, təriqət, həqiqət, mərifət və ilahi sirlər mövzusunda bir çox alimi özünə heyran etməyi bacarıb.

Əsərin orijinalı, Baba Nemətullah Naxçıvaninin əl yazısı ilə yazdığı nüsxəsinin II cildi Topqapı Sarayı III Əhməd xan kitabxanasında (İstanbul) mühafizə olunur. Bu kitab 1908-ci ildə Mətbəə-i-Osmaniyyədə iki cilddə nəşr olunub. Əsəri başa düşənlər az olduğundan yenidən nəşr olunmayıb.

Baba Nemətullah Naxçıvani "Əl-Fəvatihül-İlahiyyə vəl Məfatihül-Qeybiyyə" əsərinin girişində yazır: "Qardaşlarımdan və dostlarımdan arzum budur ki, bu əsərə, sadəcə, ibrət gözü ilə baxsınlar. Fikir bildirərkən mənəvi zövq və vicdan hissi ilə oxusunlar. Sübut, nəfsi-hesab və təxminlə yox, real təhlil və müşahidə ilə yanaşsınlar".

Əsərin tərcümə edilib nəşrə hazırlanmasında məqsədimiz böyük alimin irsini arzuladığı səpkidə öyrənmək və ictimaiyyətə çatdırmaqdır.

**Nərgiz İSMAYILOVA**

# Viktorinanın yarımfinal və final mərhələləri olub

***Naxçıvan Dövlət Texniki Kollecində "Oxunması zəruri olan kitabların Siyahısı"ndan 15 kitaba həsr olunmuş viktorinanın yarımfinal və final mərhələləri keçirilib.***



Əvvəlcə kollecin direktoru Asəf Ruşanov çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixdə imzaladığı "Oxunması zəruri olan kitablar haqqında" Sərəncamın əhəmiyyətindən danışıb. AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Elxan Yurdoğlu və kollecin müəllimi Çinarə Əliyeva çıxış ediblər. Bildirilib ki, mütaliə insanın daxili aləminin zənginləşdirilməsində, dünyagörüşünün düzgün formalaşdırılmasında, nitq qabiliyyətinin inkişaf etdirilməsində mühüm əhəmiyyət daşımaqla yanaşı, həm də müsbət insani və iradi keyfiyyətlərin yaradılmasında böyük rol oynayır. Bu baxımdan oxunması zəruri olan kitablar haqqında imzalanan sərəncam zamanında atılmış addımdır. Bu dövlət sənədi gənclərdə mütaliəyə olan marağın artmasına, onlarda bədii zövqün formalaşmasına mühüm təsir göstərir.

Sonra viktorinanın yarımfinal və final mərhələləri keçirilib. Yarımfinal mərhələsində iştirak edən 60 tələbə finala çıxmaq üçün 12 qrupda mübarizə aparıb. 4 qrupda 20 tələbə yüksək nəticə qazanaraq adlarını finala yazdırıb. Finalda bu komandalar müvafiq olaraq I, II, III və həvəsləndirici yerlərə layiq görülüblər. Qaliblər diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

**Nail ƏSGƏROV**

# *"Eynəli bəy Sultanovun həyat və yaradıcılığı" mövzusunda tədbir*



Naxçıvan Şəhər Təhsil Şöbəsinin təşkilatçılığı ilə 7 nömrəli tam orta məktəbdə Azərbaycanın görkəmli maarifçi-ziyalısı, yazıçı-publisist Eynəli bəy Sultanovun həyat və yaradıcılığına həsr edilmiş tədbir keçirilib. Tədbiri giriş sözü ilə məktəbin direktoru Aygün Hüseynova açaraq Eynəli bəy Sultanovun zəngin və çoxcəhətli yaradıcılıq fəaliyyəti ilə xalqımızın ədəbi-mədəni tərəqqisinə unudulmaz töhfələrindən bəhs edib.

Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Elşən Qəbulov Eynəli bəy Sultanovun geniş ictimaiyyətə tanıdılmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 15 fevral tarixdə imzaladığı "Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamın əhəmiyyətindən danışıb.

Qeyd olunub ki, Eynəli bəy Sultanovun "Məqalələr" kitabının "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilməsi görkəmli yazıçı-publisistin yaradıcılığına verilən yüksək qiymətin nəticəsidir.

Tədbirdə məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Sevda Əsgərova və X sinif şagirdi Aysel Hüseynovanın çıxışları dinlənilib, maarifçi-ziyalının həyat və yaradıcılığı ilə bağlı suallardan ibarət viktorina keçirilib.

Sonda qaliblər diplomlarla mükafatlandırılıblar.

**Gülcamal TAHİROVA**

# Naxçıvan Dövlət Uşaq Teatrı yeni-yeni uğurlar əldə edir

***İstedadlı uşaq və gənclərin yaradıcılıq potensiallarının aşkara çıxarılması, onların düzgün istiqamətləndirilməsi sahəsində muxtar respublikamızda müxtəlif tədbirlər görülür, yeni müəssisələr yaradılaraq istifadəyə verilir. Bu dəfə onlardan biri – Naxçıvan Dövlət Uşaq Teatrı ilə tanış olacağıq.***





Naxçıvan Dövlət Uşaq Teatrının tarixi, fəaliyyəti, gördüyü işlər barədə bizi teatrın direktoru, Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidov məlumatlandırdı. O dedi ki, teatr Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 4 oktyabr tarixli Sərəncamı ilə yaradılıb və on ildən artıqdır, balaca teatrsevərlərin dünyagörüşünü zənginləşdirir, inkişaf etdirir. Bu illər ərzində teatrın kollektivi otuza yaxın səhnə əsərinə quruluş verərək, vaxtaşırı tamaşaçıların görüşünə gəlib. Tamaşaların seçimində isə vətənpərvərliyə, dövlətçiliyə, anaya sevgi aşılayan ssenarilərə üstünlük verilir. "Bu dünya bir nağıldır", "Yaxşılıq itmir", "Fəridin yuxusu", "İgidlik imtahanı", "Meşə əhvalatı", "İki qardaş", "Ata məhəbbəti" və digər tamaşaları buna misal göstərmək olar. 2016-cı ildə Abdulla Şaiqin "Danışan kukla" əsəri intermediya janrında işlənərək tamaşaya hazırlanıb. Tamaşanın quruluşçu rejissorları Tofiq Seyidov və Nurbəniz Niftəliyeva olub. Hazırda da repertuar seçimində tərbiyəvi əhəmiyyətli əsərlərə üstünlük verilir.

Naxçıvan Dövlət Uşaq Teatrı aktyor kadrlarının hazırlanması işində də misilsiz xidmət göstərir. Belə ki, vaxtilə yaradıcılıq fəaliyyətinə burada başlamış bəzi həvəskar aktyorlar zamanla bu sənətdə qərarlaşaraq özlərini doğruldub və bu gün Naxçıvan Dövlət Musiqili Dram Teatrının peşəkar aktyorları ilə çiyin-çiyinə çalışırlar. Bunlardan Səyyad Məmmədov, Vəli Babayev, Uğur Nəsirli, Mehri Nəbiyevanın adlarını çəkmək olar. Bu teatrın yetirməsi olan Elnur Rzayev hazırda Azərbaycan Dövlət Pantomim Teatrında rejissor kimi fəaliyyət göstərir.

Teatr fəaliyyət göstərdiyi ilk illərdə Qədir Məmmədli, Turac Hacızadə, Nurlan Sultanlı kimi istedadlı uşaqları özünə cəlb edə bilib. Adıçəkilənlər 18 yaşına kimi bu kollektivin üzvləri olublar. Teatrdakı aktyorlar orta məktəb şagirdləri, kollec və universitet tələbələridir. Bu barədə danışan Tofiq Seyidov dedi: – Təhsil ocaqlarına baş çəkib uşaqlarla söhbət edir, onları bu sahəyə həvəsləndiririk. Maraqlanan uşaqlar bizə müraciət edir. Bundan sonrakı mərhələdə isə biz onların qabiliyyətlərini yoxlayırıq. Müraciət edən istedadlı uşaqlara əvvəlcə kiçik rollarla səhnəyə çıxarırıq. Onlardan bəziləri sonradan teatrla əlaqələrini kəssə də, istedad və həvəsi olanlar çox çalışaraq qısa zaman ərzində bu sənətdə irəli gedirlər. Bunlardan Heyran Abdullayevanın, Nurlan Qafarovun, Fatimə Bədəlovanın adlarını, xüsusilə qeyd etmək istərdim. Bu istedadlı gənclərin parlaq gələcəklərinin olacağına ümid edirəm.

Dərs saatı başa çatdıqdan sonra, yəni nahardan bir az keçmiş uşaqlar həvəslə buraya gəlirlər. Məşqlər bir neçə saat aparılır. Gənc aktyorlarla yanaşı, Azərbaycan Respublikasının Əməkdar artisti Xəlil Hüseynov, Bəhruz Haqverdiyev, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Şirzad Abutalıbov kimi səhnə ustaları da vaxtaşırı onlarla birlikdə səhnəyə çıxırlar. Tamaşaların nümayişi əksər hallarda Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin zalında olur.

Tofiq Seyidov onu da bildirdi ki, Naxçıvan Dövlət Uşaq Teatrının kollektivi muxtar respublikada keçirilən kütləvi tədbirlərdə, Novruz və Yeni il şənliklərində fəallıq göstərir, "Şaxta və saxta baba", "Bahar qızın şənliyə gəlişi" adlı tamaşalarla çıxış edir. Eləcə də yay və qış tətillərində həftənin 5-6 günü Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin zalında xüsusi hazırlanmış proqramla ümumtəhsil məktəbləri şagirdlərinin görüşündə olur. Məqsəd tətillərdə onların asudə vaxtlarını səmərəli keçirməkdir.

Bildiyimiz kimi, 2016-cı ildə adıçəkilən teatrın 10 illik yubileyi qeyd olunub. Teatrın aktyorları yubiley tədbirində də uğurla iştirak ediblər. Onlar görkəmli fransız yazıçısı Antuan de Sent Ekzüperinin "Balaca şahzadə" alleqorik nağıl-povesti əsasında hazırlanmış tamaşanı səhnələşdiriblər. Tamaşa şahzadənin yeddi kiçik planetə səyahətindən ibarət fantastika, alleqoriya və gerçəklik arasında, real həyat epizodları üzərində qurulub. Görkəmli yazıçının insanlara səmimi münasibəti, anlaşma və xeyirxahlıq fikirləri əsərin əsas leytmotividir. Tamaşada balaca şahzadələri Nurbəniz Niftəliyeva və Rəhman Abbasov canlandırıblar. Gənc aktyorlar rollarının öhdəsindən bacarıqla gəliblər. Tamaşanın quruluşçu rejissorları Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidov və Nurbəniz Niftəliyeva, quruluşçu rəssamları Behruz Quliyev və Həbib Allahverdiyevdir. Rəqslərə Humay Qafarova və Nurbəniz Niftəliyeva quruluş veriblər. Tamaşanın musiqi tərtibatçısı da Nurbəniz Niftəliyevadır.

Direktor teatrın ən böyük uğurunu isə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı ilə birgə hazırladığı belçikalı şair-dramaturq, Nobel mükafatı laureatı Moris Meterlinqin "Göy quş" əsərini səhnəyə qoyulması hesab edir. Teatrın gənc aktyorlarından Coşqun Əliyev, Nurgül Müslümova, Heyran Abdullayeva və digərləri əşya və ünsür, uşaq obrazlarını ifa ediblər.

Zala doğru yol alıb aktyorların məşq prosesində iştirak edirik. Onlar Cəlil Məmmədquluzadənin "Çay dəstgahı" adlı alleqorik mənzum dramını səhnələşdirirlər. Tamaşanın quruluşçu rejissoru Ələkbər Qasımov, səhnə tərtibatçısı isə Fizzə Quliyevadır. Bu əsəri səhnələşdirməkdə məqsəd həm Mirzə Cəlil yaradıcılığına müraciət, həm də bəzi faydalı məsləhətləri əşyaların dili ilə gənc nəslə çatdırmaqdır.

Teatr yeni ilin ilk günlərində balaca tamaşaçılarını "Bizə dovşan və Şaxta baba lazımdır" tamaşası ilə sevindirib. Bir neçə gün ərzində göstərilən bu tamaşa uşaqlar tərəfindən maraqla qarşılanıb.

Naxçıvan Dövlət Uşaq Teatrının istedadlı aktyorlarından Heyran Abdullayeva deyir ki, onun istedadını hiss edən ilk insan anası olub. Elə buna görə də əlindən tutub bu teatra gətirib. Heç şübhəsiz ki, bu kollektivə daxil olmaqda özünün də həvəsi, istəyi olub. Əvvəlcə kiçik rollarla tamaşaçı qarşısına çıxan Heyranın ilk canlandırdığı obraz Həsənalı Eyvazovun "Nadan xoruz" əsərində Fərə obrazı olub. Zaman-zaman səhnə mədəniyyətinə yiyələnərək daha əhəmiyyətli obrazları canlandıran 16 yaşlı bu aktyor "Göy quş" tamaşasında baş rolu sahiblənməyə müvəffəq ola bilib ki, bunu da özünün ən böyük uğurlarından hesab edir.

"Həvəsin və qabiliyyətin olduqdan sonra bu sənət o qədər də çətin deyil", – deyən Heyran onu da qeyd edir ki, əgər yaxşı aktyor olmaq istəyirsənsə, çalışmaq lazımdır. Əmək sərf etdikdən sonra bütün hədəflərə çatmağın mümkün olduğunu nəzərə alsaq, deməli, hər şeyə nail olmaq mümkündür.

*Onlar hələ çox gəncdir. Yaradıcılıq üçün qarşılarında uzun illər və geniş imkanlar var. İnanırıq ki, sənətə bu teatrda başlayan yeniyetmələrin səsi gələcəkdə böyük səhnələrdən eşidiləcək. Uğur olsun!*

**Fatma BABAYEVA**

---

Journalistin qeydləri

# Sağlamlığımıza balta vuranlar, yaxud sabahımıza biganəlik

***Son zamanlar arıqlamaq üçün istifadə olunan məhsulların sosial şəbəkələr üzərindən onlayn satışlarının təşkili geniş vüsət alıb. Həkim və dietoloq nəzarətindən kənar necə gəldi satılan həmin məhsullardan isə ən çox istifadə edən xanımlardır. Elə, bəlkə də, ona görədir ki, bu sahə getdikcə gəlirli bir biznesə çevrilir.***

Qısa araşdırma apardıq. Məlum oldu ki, dünyada ən çox istifadəçisi olan "İnstaqram" şəbəkəsində "Herbalife Naxçıvan" adında onlarla səhifə yaradılıb. Əvvəlcə güclü reklamı aparılan bu məhsullar özünə kifayət qədər maraq cəlb etdikdən sonra onlayn yolla muxtar respublikaya gətirilərək satılır. Özü də insanların etibarından sui-istifadə edilərək qat-qat baha qiymətə, bəzən 100-150 manata. Həm də onların əksəriyyəti xaricdə istehsal edildiyindən bu məhsulların tərkibinə nəzarət imkanları da zəifdir. Halbuki həmin məhsullardan mütləq ixtisaslı dietoloqların nəzarəti altında istifadə olunmalıdır. Amma, təəssüf ki, arıqlama məhsullarının satışı ilə məşğul olanlar nə həkim, nə də dietoloqdur. Onlar, sadəcə, öz ciblərini bizim sağlamlığımız naminə dolduran işbazlardır. Beləcə, həmin işbazların toruna düşən insanlarımız öz əlləri ilə öz sağlamlıqlarına, necə deyərlər, balta vururlar.

Yuxarıda da qeyd etdiyimiz kimi, onlayn yolla satılan bu məhsullardan istifadə həkim-dietoloq nəzarəti altında həyata keçirilməlidir. Sosial şəbəkələrdə onları reklam edərkən məhsulun istifadəsinin bir sıra xəstəliyi olanlara qadağan edildiyi bildirilir. Onda sual oluna bilər: bəlkə, bu məhsullardan istifadə edən şəxs hər hansı bir xəstəliyin daşıyıcısı olmaqdan özü də xəbərsizdir, o zaman həmin şəxsdə baş verəcək fəsadlara görə kim cavab verəcək?!

Məhsullardan istifadə edənlər "bir neçə günə 4-5 kiloqram arıqladım", – deyib aləmə hay təpir, sevinclərini başqaları ilə paylaşırlar. Sirr deyil ki, paylaşmalar, əsasən, məhsulun satıcıları tərəfindən müştərini cəlb etmək üçün düzülüb-qoşulur.

Məhsulların tərkibi və ya zərərli tərəfləri barədə isə mütəxəssislər durmadan həyəcan təbili çalırlar. Bəziləri hətta ölümə səbəb olacağını deyirlər. Bir sözlə, qısa zamanda itirilən çəkilər sağlamlığımıza, nəticə etibarilə, sabahımıza çox ciddi zərbələr vurur.

Mənim fikrimcə, arıqlamaq özfəaliyyət olmamalıdır. Təbii ki, bütün qadınlar gözəl görünmək istəyir. Amma bu, sağlamlığımız naminə başa gəlməməlidir. Artıq çəkidən qurtulmağın ən gözəl yollarından biri düzgün və səmərəli qidalanma, aktiv həyat tərzi və idmandır. Hər insanın orqanizmi onun bağçasıdır, iradəsi isə bağbanı. Hərəkət həyatdır. "Sağlam həyat sağlam idman və aktivliyin nəticəsidir". Bu deyim idman sahəsində çalışan həkimlərin apardıqları araşdırmalardan sonra özləri üçün seçdikləri devizdir.




Sevindirici haldır ki, bu gün muxtar respublikamızda qadınlar üçün ən yüksək səviyyədə idman alətləri ilə təmin olunan aerobika, fitnes, bədii gimnastika salonları, tennis və üzgüçülük mərkəzləri fəaliyyət göstərir. Əgər Naxçıvanda bizim sağlamlığımız, ideal çəki və bədən quruluşuna sahib olmağımız üçün hərtərəfli imkan yaradılıbsa, bəs nə üçün biz bu imkanlardan səmərəli istifadə etməyək?! Gəlin arıqlama, çəkiitirmə adı ilə bizə sırınan zərərli vasitələrdən uzaq duraq, sağlamlığımıza süni yollarla balta vurmayaq. Axşamlar Naxçıvan şəhərinin sakit, təmiz yollarında bir saat yürüş etmək, görün, sizin sağlamlığınıza nə qədər müsbət təsir edəcək. Deyirlər, güclü olmaq istəyirsənsə, qaç, sağlam olmaq istəyirsənsə, qaç, gözəl olmaq istəyirsənsə, yenə də qaç!

Bu məqamda bir qədər geriyə qayıdaq. Hələ ötən ilin aprel ayında Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində bir qrup şəxsin külli miqdarda dərman preparatlarının qanunsuz olaraq muxtar respublika ərazisinə gətirməsi və satışının təşkilinin qarşısı alınmışdı. Aparılan araşdırmalar zamanı məlum olmuşdu ki, bir qrup şəxs heç bir tibbi təhsili olmadığı halda, qanunsuz olaraq bir neçə nəfərlə əvvəlcədən razılığa gələrək dövlət qeydiyyatına alınmamış və normativ-texniki tələblərə cavab verməyən dərman preparatlarının muxtar respublika ərazisindəki əczaxanalarda satışını təşkil edib. Həmin şəxslər sosial şəbəkələrdəki (facebook və instagram) səhifələrində özünü insanlara həkim kimi təqdim edərək, icitmaiyyət arasında tanınmağa çalışaraq asan qazanc dalınca düşmüşdülər. Amma vaxtında görülən tədbirlər nəticəsində həmin şəbəkənin qanunsuz əməllərinin qarşısı alındı.

*Gəlin bu cür hallara qarşı hər birimiz barışmaz olaq və sağlamlığımıza biganə yanaşmayaq!*

**Sara ƏZİMOVA**
*jurnalist*

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 16